**AZƏRBAYCAN RESPUBLİKASI**

**MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**

**F.KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI**
**ELMİ-METODİKA ŞÖBƏSİ**



**Xalq yazıçısı Cülhüseyn Hüseynoğlunun 90 illik yubileyi münasibətilə**

# "Mənsur şeirlər ustası"

**(metodiki vəsait)**

**B A K I – 2013**

**Tərtibçidən**

**Müasir Azərbaycan ədəbiyyatında digər yanrlarla yanaşı, mənsur şeir də yaşayır və inkişaf edir. Bunun üçün ilk növbədə yazıçı Gülhüseyn Hüseynoğluya minnətdarıq. Ədib təkcə mənsur şeir mövzusunda deyil, müxtəlif yanrlarda da yazıb yaradıb. Sadə bir dilə malik hekayələri, povestləri və bədii oçerkləri elə ilk anlardan oxucuların diqqət və marağına səbəb olmuşdur. Elmi əsərləri belə orjinallığı və dil gözəlliyi ilə fərqlənir. Yazıçının bütün yaradıcılıq məhsulları geniş oxucu kütləsi üçün əvəzsiz ərməğandır.**

**Ədəbiyyatda bir yanrın banisi olmaq, şübhəsiz ki, əsl novatorluqdur. Sevindirici haldır ki, bu novatorluq ədibin hər bir əsərində də görünüb-duyulmaqdadır. Bəli, Gülhüseyn Hüseynoğlunun qələmə aldığı mənsur şeirlər ideya məzmununa görə də, sənətkarlıq xüsusiyyətlərinə görə də gözəl yaradıcılıq nümunələridir.**

**Mənsur şeirlər yalnız oxuyub zövq almaq üçün yazılmamışdır. Bu əsərlərdə yazıçı qəlbinin hərarəti, acılı-şirinli duyğuları əks olunmuşdur. Elə bir əsər yoxdur ki, orada ədibin istək və amalı, sevinc və kədəri, təəssüf və hətta qəzəbi hiss olunmasın. Bu əsərlərin hamısı düşündürücü, ibrətedici və tərbiyəedicidir.**

**Orijinal yaradıcılıq yoluna malik görkəmli yazıçı Gülhüseyn Hüseynoğlu gözəl əsərləri ilə çoxdan oxucuların rəğbətini qazanmışdır. Ədibin müxtəlif illərdə nəşr edilmiş "Yaşatmaq üçün", "Mənsur şeirlər", "Ay nur çiləyəndə", "Etiraf", "Bir ömrün çıraqları", "Sübh çağı", "İnsan", "Beşincilər", "Gözəl", "Mücrü" adlı kitablarında, eləcə də "Seçilmiş əsərləri"ndə toplanmış onlarca hekayə, povest, və mənsur şeir əsl sənətkar qələminin məhsuludur.**

**Gülhüseyn Hüseynoğlunun mənsur şeirləri, hekayələri üçün üslub gözəlliyi səciyyəvidir. Bu gözəllik, bir tərəfdən, müəllifin zəngin Azərbaycan xalq ədəbiyyatını kamil bilməsi, digər tərəfdən özünün fərdi istedadı ilə əlaqədardır.**

## Həyat və yaradıcılığı:

Azərbaycan ədəbiyyatı olduqca şərəfli bir inkişaf yolu keçmişdir. Əsası poeziya ilə qoyulan bu ədəbiyyatda sonralar yeni-yeni ədəbi növlər, yanrlar meydana gəlmişdir. Həmin növlər və janrlar isə ayrı-ayrı sənətkarlarımızın, söz ustalarımızın adı ilə bağlıdır.

Gülhüseyn Hüseynoğlu Azərbaycan ədəbiyyatında orta nəslə mənsub görkəmli ədiblərdən biridir. O, öz saf, səmimi, təbii hiss, həyacanlarını bədii sözün qüdrətilə həmişə oxucularına demiş, onları düşündürmüş ruhunu və zövqünü oxşamışdır.

Gülhüseyn Hüseynoğlu yaradıcılığa başladığı zamandan oxucuların rəğbətini qazanmış, öz imzasını oxucularına sevdirə bilmişdir. Onun qələmə aldığı hekayə, povest və mənsur şeirləri sovet adamlarının dinc, qəhrəman əməyini, müasir insanın saf və təmiz əxlaqi keyfiyyətlərini tərənnüm etmişdir. Fəxrlə deməliyik ki, əsrimizin 40-cı illərindən başlayaraq, ədəbiyyatımızda daha bir yenilik meydana gəldi. Görkəmli söz ustası Gülhüseyn Hüseynoğlu Azərbaycan ədəbiyyatına mənsur şeir yanrını gətirdi. Bu ədəbi janrın bizim üçün də dogma olduğunu sübuta yetirdi.

G.Hüseynoğlu yarım əsrdən artıqdır ki, nəsrin irili-xırdalı bütün növlərində qələm işlədir. Bir-birindən gözəl hekayələri, povestləri, bədii oçerkləri, elm əsərləri vardır.

1946-cı ildə “Bənövşə əfsanəsi” adlı mənsur şeirini mətbuatda dərc etdirən yazıçı əlli il ərzində həm özü kamilləşmiş, qüdrətli sənətkar kimi şöhrət tapmış, həm də bu yanrı təkmilləşdirərək, yüksək səviyyəyə qaldırmışdır. Bir sözlə, ədəbiyyat tariximizdə ədib mənsur şeirə, mənsur şeir isə ədibə həmişəyaşarlıq qazandırmışdır.

Bu gözəl yanrın G.Hüseynoğlu tərəfindən yazılan cazibədar nümunələrində xalq yaradıcılığı ruhunun, mənsur şeir ustalığının və yazıçı kamilliyinin qırılmaz vəhdəti vardır. Odur ki, onları maraqla oxumamaq və oxuyub sevməmək mümkün deyildir. Sadəlik, yığcamlıq və milli kolorit bu əsərlərin emosional təsirini daha da artırır, geniş oxucu kütləsini ilk andan özünə cəlb edir.

Bəli, ədib dərin düşüncələrinin və iti qələminin gücü ilə möcüzələr yaradır, oxucu ürəyini fəth etməyə nail olur. Yaradıcılığının böyük bir hissəsini mənsur şeir yanrı ətrafında mərkəzləşdirən yazıçı özünün yüksəliş və kamillik dövründə daha ürəklə işləyir. O, gecəli-gündüzlü yazır, yorulmağın nə olduğunu bilmir.

Bu illər ərzində görkəmli söz ustasının onlarca kitabı nəşr olunmuş, əsərləri müxtəlif dillərə tərcümə edilərək, xarici oxuculara çatdırılmış, və ilk andan böyük rəğbətlə qarşılanmışdır.

G.Hüseynoğlunun mənsur şeir yaradıcılığı tükənməz bir çeşmədir, dağ şəlaləsidir. Ədib bu vaxtadək yüz əlliyə yaxın mənsur şeir yazmışdır ki, hələlik bu qədər mənsur şeiri olan ikinci bir sənətkar məlum deyildir. Ədib təkcə say, kəmiyyət etibarı ilə deyil, keyfiyyət etibarı ilə də mənsur şeir yazanların hamısını geridə qoymuşdur. Dəfələrlə qeyd etdiyimiz kimi, yazıçının mənsur şeirləri bədii cəhətdən də, lirizminə və şeriyyətinə görə də daha yüksək səviyyədədir.

Ədibin bu gözəl əsərləri barədə indiyədək deyilənlər də kifayət deyildir. Məsələn, həmin əsərlərin tərbiyəvi əhəmiyyəti də unudulmamalıdır. Mənsur şeirlərin hər biri oxucunu düşünməyə, hər hansı səhv yoldan çəkinməyə, nəcib, humanist və xeyirxah olmağa səsləyir. Çünki ədib özü də nəcib və xeyirxah bir şəxsiyyətdir.

G.Hüseynoğlu yaradıcılığının dəyərli cəhətləri barədə saatlarla, günlərlə, danışmaq olar. Onun əsərlərinin hamısı məhz insana xidmət, onun əqli və bədii zövqü cəhətdən inkişafına yardım məqsədi ilə qələmə alınmışdır.

Bir sözlə G.Hüseynoğlunun yaradıcılıq fəaliyyətinə nəzər salsaq onun nə qədər keşməkeşli, zəngin xatirələrlə dolu yaradıcılıq və həyat yolu keçdiyinin şahidi olarıq.

Gülhüseyn Hüseynoğlu 1923cü il oktyabrın 16-da Masallı rayonunun Mollaoba kəndində dünyaya göz açmış, üç-dörd yaşlarında ikən ailələri Bakıya köçdüyündən onun da həyatı ömürlük bu şəhərlə bağlanmışdı. 1947-ci ildə ADU-nun filologiya fakültəsini bitirmiş, aspiranturaya qəbul olunmuş, lakin şəxsiyyətə pərəstiş dövründə həbs edilmiş, 25 il azadlıqdan məhrum olunmuşdur. 1956-cı ildə ona tam bəraət verilmiş, aspiranturaya bərpa edilmiş, universitetdə müəllim saxlanmışdır. G.Hüseynoğlunun "Ana" adlı ilk hekayəsi 1944-cü ildə, "Bənövşə əfsanəsi" adlı ilk mənsur şeiri isə 1946-cı ildə işıq üzü görmüşdür.

Əmək fəaliyyətinə hələ tələbə ikən, 1942-ci ildə "Kommunist" qəzeti redaksiyasında ədəbi işçi olaraq başlayan Gülhüseyn Hüseynoğlu 1945-1947-ci illərdə "Ədəbiyyat qəzeti" redaksiyasında, 1947-1948-ci illərdə isə Gənc Tamaşaçılar Teatrının pedaqoji şöbəsində işləyib. O, 1957-ci ildən etibarən taleyini Azərbaycan Dövlət Universiteti ilə bağlayıb, filologiya fakültəsinin Müasir Azərbaycan Ədəbiyyatı kafedrasında müəllim, baş müəllim, dosent və professor vəzifələrində çalışaraq, ömrünün yarım əsrdən artıq bir dövrünü ölkəmizdə təhsilin inkişafına həsr etmişdir. Müasir Azərbaycan nəsrinin tanınmış nümayəndələrindən olan Gülhüseyn Hüseynoğlu 1944-cü ildən etibarən ədəbi yaradıcılığa başlayıb, yetmiş ilə yaxın müddət ərzində ədəbiyyatımızın inkişafı naminə çalışmışdır. Onun özünəməxsus üslubu və uğurlu poetik axtarışları ilə seçilərək oxucuya zövq aşılayan əsərləri müasirlərimizin həyatını, mənəvi aləmini dolğun əks etdirən bədii lövhələrlə zəngindir. Gülhüseyn Hüseynoğlu ədəbiyyatımızda mənsur şeirin ilk və dəyərli nümunələrini yaratmışdır. Azərbaycan nəsrində bədii-poetik struktur baxımından yeni olan bir janrda meydana gətirilən həmin əsərlər ədəbi tənqidin diqqətini daim özünə cəlb etmiş və

həmişə təqdirlə qarşılanmışdır. Gülhüseyn Hüseynoğlunun eyni zamanda tədqiqatçı alim kimi Azərbaycan ədəbiyyatşünaslığı qarşısında özünəməxsus xidmətləri vardır. O, şəxsiyyətə pərəstişin ilk qurbanlarından olan Mikayıl Müşfiq haqqında ilk monoqrafiyanın, ilk dissertasiyanın və ali məktəblər üçün ilk dərs vəsaitinin müəllifi idi. Onun xüsusən böyük şairin poetik irsinə dair çoxsaylı axtarışları, eləcə də digər araşdırmaları həmişə elmi ictimaiyyətin marağına səbəb olmuşdur. Yazıçının dərin bədii-estetik keyfiyyətləri və orijinal məzmunu ilə səciyyələnən əsərləri bir sıra dillərə tərcümə olunaraq nəşr edilib. Gülhüseyn Hüseynoğlu ədəbi və elmi yaradıcılığını ahəngdar şəkildə pedaqoji fəaliyyəti ilə əlaqələndirməklə uzun illər Bakı Dövlət Universitetinin professoru olaraq Azərbaycanda yüksək ixtisaslı kadrların hazırlanması işinə layiqli töhfələr verib.

Azərbaycan ədəbiyyatının inkişafında xidmətlərinə görə Gülhüseyn Hüseynoğlu bir sıra mükafatlara və təltiflərə, o cümlədən 2005-ci ildə "Xalq Yazıçısı" fəxri adına layiq görülmüşdür. O, 2002-ci ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü idi. Tanınmış nasir, istedadlı ədəbiyyatşünas, mahir pedaqoq və səmimi insan Gülhüseyn Hüseynoğlunun işıqlı xatirəsi onu tanıyanların qəlbində hər zaman yaşayacaq.

## Yubiley tədbirlərinin keçirilməsi:

Görkəmli sənətkarın yaradıcılığını izləyənlər yaxşı bilirlər ki, o, əlinə qələm alan gündən böyüklərlə yanaşı, uşaqları da unutmamışdır. O, uşaq yazıçısı olmasa da, uşaqlar üçün gözəl hekayələr müəllifi kimi tanınmışdır. Yazıçının "Balaca dostlarım üçün" silsiləsindən olan "Bəhram", "Balaca adam", "Balamirzənin nəvələri", "Ana qoynu", "Xalqımızın sevimli şairi", "Elçinin ağacı", "Çoxbilmiş", "Kişi kimi", "İtmiş keçi", "Özgəyə əriştə kəsən oğlan", "Qayış", və ya "Beşincilər" kimi hekayələri uşaqlar üçün yazılmış əsərlərin ən gözəl nümunələridir.

G.Hüseynoğlunun yaradıcılığında uşaqlar üçün yazılan əsərlərin mövzusunun, ümumən tərbiyəvi mövzuların çoxluq təşkil etməsi, onun ömür boyu insanlara, xüsusən gənc nəsillə ünsiyyətdə olması, tərbiyəçi funksiyasını real həyatda yerinə yetirməsi ilə əlaqədardır. O, uşaq psixologiyasını mükəmməl bilir. Elə bu qüdrətin nəticəsidir ki, öz əsərlərində geniş uşaq aləmi yaratmağa nail olmuşdur. Onun yaratmış olduğu surətlər xaraktercə də, zahiri görkəmcə də bir-birinə bənzəmirlər. Lakin onları ümumi bir cəhət ülvi məqsəd uğrunda adi, həyatı fəaliyyət yaxınlaşdırır. Ədibin hər bir əsərinin əsas qayəsi budur: uşaqlar Vətənə və xalqa məhəbbət, böyüklərə hörmət, əməyə və təhsilə rəğbət ruhunda tərbiyə olunmalıdırlar. Çünki onlar bizim gələcəyimizdir.

Elə bu baxımdan da F.Köçərli adına Respublika Uşaq Kitabxanasında G.Hüseynoğlunun 90 illik yubileyi ilə bağlı silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Tədbirlər planına kitab sərgisini, səhərcikləri, ucadan oxunu, kitab müzakirəsini, oxucu konfranslarını, ədəbi-bədii gecələri və s. daxil etmək olar.

Xalq yazıçısı G.Hüseynoğlunun yubileyi ilə bağlı F.Köçərli adına Respublika Uşaq Kitabxanasında ilk öncə sərgi təşkil olunur. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn, "Gülhüseyn Hüseynoğlu-90", "Mənsur şeirlər ustası", "Günlərin bir günündə", və s. "Gülhüseyn Hüseynoğlu-90" adlı sərginin nümunəsini veririk.

**Başlıq: "Gülhüseyn Hüseynoğlu-90"**

1. Gülhüseyn Hüseynoğlunun kitablarının nümayişi.
2. Gülhüseyn Hüseynoğlu haqqında görkəmli insanların söylədikləri sitatlar.
3. Dövrü mətbuatda çap olunan məqalələrin kartotekası.

Kitabları.

1. Hüseynoğlu. G. Seçilmiş əsərləri.
2. Hüseynoğlu G. Ömrümüz boyu.
3. Hüseynoğlu G. Qatar gedir.
4. Hüseynoğlu G. Çətin yol.

5. Hüseynoğlu G. İnsanlar və dalğalar.
6. Hüseynoğlu G. Yana-yana.

**Sitatlar:**

1. Gülhüseyn heç kimə bənzəməyən, özünün dəsti-xətti, üslubu olan, həmişə axtaran, poetik kəşflər edən, özünə tələbkar, əsərləri üzərində zərgər dəqiqliyi ilə işləyən, oxucusuna və ümumən ədəbiyyata hörmət bəsləyən, az yazmağı, mənalı yazmağı sevən yazıçıdır. Onun yazılarında süni effekt tapmaq çətindir. Şairanəlik, emosionallıq, axıcılıq, aydınlıq və sadəlik onun bədii dilini sevdirən çəhətlərdəndir.

   Mir Cəlal Paşayev
   Yazıçı, ədəbiyyatşünas

2. Satirayla, ciddi realist ifadə tərzi ilə lirikanın romantic boyalarını qovuşuq işlədə bilmək, bir ədib kimi, Gülhüseyn Hüseynoğlunun yaradıcılığına oxunaqlıq, səmimiyyət, təsir gücü aşılayır.

   Sabir Rüstəmxanlı
   Xalq şairi

3. Gülhüseyn Hüseynoğlu, həmçinin, gözəl alim, Mikayıl Müşfiq yaradıcılığının görkəmli tədqiqatçısıdır. O, M.Müşfiqin həyatı, yaradıcılığı haqqında ilk sanballı monoqrafiyanın, dissertasiyanın və çoxlu tədqiqat əsərinin müəllifidir. Görkəmli şairin şeirlərinin toplanması, tərtibi, redaktəsi və çap olunmasında Gülhüseyn Hüseynoğlunun zəhməti təqdirəlayiqdir.

   Aslan Aslanov
   Fəlsəfə elmləri doktoru, professor

Kitabxanada G. Hüseynoğlunun yaradıcılığını yaxından izləmək üçün keçiriləcək tədbirlərdən biri də kitab müzakirəsidir. Kitab müzakirəsində G.Hüseynoğlunun “Seçilmiş əsərləri” adlı kitabını və kitabın içərisində olan “Ana” hekayəsinin müzakirəsini keçirmək olar. G.Hüseynoğlunun “Seçilmiş əsərləri” onun ilk hekayəsi “Ana” ilə açılır.

Ədibin “Ana” hekayəsi 1944-ci ildə “Ədəbiyyat” qəzetində çap edilmişdir. Məlumdur ki, bədii ədəbiyyatda ana obrazı həmişə diqqət mərkəzində olmuşdur. Bu obraz şair və yazıçını da, oxucunu da eyni dərəcədə, eyni ehtiram hissilə cəlb edir. O, ana kimi tanınır, ana kimi də sevilir. M.Qorkinin “Ana” romanına, C.Cabbarlının “Ana” şeirinə, ustad Şəhriyarın “Ey vay anam”, S.Vurğunun “Anamın dərdi”, S.Rüstəmin “Ana və poçtalyon” və s. bədii əsərlərə diqqət və maraq da bundan irləli gəlir. Ədib “Ana” hekayəsində əvəzsiz ana məhəbbətini, vətən və xalq istəyini, xalqın adət və ənənələrinə sonsuz ehtiram hissini, dostun

ağır günündə verilən sözə əməl edə bilməmək əzabını, yeri gələndə ümidi, bütün insanların üz tutduqları bu ulu mənəvi dayağı psixoloji həssaslığı öz hekayəsində ustalıqla təcəssüm etdirmişdir.

Bir sözlə, ana obrazı bədii ədəbiyyatın qızıl xəttini təşkil edir.

F. Köçərli adına Respublika Uşaq Kitabxanasında keçirilən tədbirlərdən biri də poeziya gecəsidir. Tədbirə bir sıra təhsil müəssələrində çalışan müəllimləri, şair və yazıçıları, məktəb şagirdlərini və kitabxanaçıları dəvət etmək olar. Tədbirdə G.Hüseynoğlunun yaradıcılığından bir qədər söhbət açıldıqdan sonra oxuculara söz verilir. Oxucular da öz növbələrində sevimli yazıçımız G.Hüseynoğlunun mənsur şeirlərindən bir neçəsini səsləndirirlər.

“Əjdaha” mənsur şeiri.

Uşaqlar bir göz qırpımında yığışdılar.

Ananın gözündə qaranquşlar sıralandılar. İndicə, indicə uçacaqdılar.

Film başladı. Blacalar üçün multfilm.

Ana üçün balalarının gülüş xoru…

-Uşaq olaydım, sizin kimi mən də baxa biləydim!..

Ananın biixtiyar dediyi bu sözlər uşaqlara qəribə, çox qəribə gəldi. Təəccüb yarandı üzlərində, sual göründü gözlərində. Biri ərköyün idi, çəkinmədən dedi:

-Bax, da, anası, bəyəm gözlərini tutublar?!

Ana birdən-birə bilmədi ərköyününə, şirincəsinə nə cavab versin, bir istədi desin: “Gözlərimi tutmayıblar, balası, tutmayıblar. Di gəl ki…” Yox, demədi, düşündüyünü demədi ana.

-Baxıram, balası, baxıram,-dedi.

O elə baxırdı da. Ancaq televizordan daha çox uşaqlarının üzünə yayılan gülüşə, təbii, gücünü ürəkdən gələn gülüşə baxırdı.

Uşaqların cingiltili gülüşü, qəhqəhəsi otağı doldurmuşdu…

Birdən qəhqəhə kəsildi, uşaqların sifəti dəyişdi. Otağa vahiməli səs yayıldı.

Ana televizora nəzər yetirdi, eybəcər, dəhşətli sir-sifətiylə ekranı tutan əgdahanı görəndə acı-acı gülümsədi.

Əgdaha heç nəylə hesablaşmır, bildiyini eləyirdi.

Ana qəlbiylə danışırdı: “Əgdaha! Təkcə görünməyiynən balalarımın, qaranquşlarımın gülüşünü udan əgdaha , mənə necə də tanış gəlirsən!”

Əgdaha artıq getmişdi. Uşaqların sifətinə hələ gülüş gəlməmişdi.

Ana dərin təəssüflə öz-özünə pıçıldadı:

_Özüdür ki, var…Müharibə…Qayğısız keçirməyə hamının haqqı olan uşaqlıq illərimizi dəhşətli qayğılarla dolduran, uşaqlıq gülüşümüzü udan əgdaha!

Yubiley münasibətilə keçiriləcək tədbirlərdən biri də ədəbi-bədii gecədir. Ədəbi-bədii gecə iki hissədən ibarət olur. Bu tədbir oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Tədbiri təşkil edən kitabxanaçı bu gecəyə iki ay qabaqcadan

hazırlaşır. Tədbirin ədəbi hissəsində xalq yazıçısı G.Hüseynoğlunun yaradıcılığını yaxından izləyən qələm yoldaşlarının, şair və yazıçıların çıxışları olmalı, bədii hissəsində isə ədibin şeirlərindən, povest və hekayələrindən parçalar səhnələşdirilib göstərilməlidir. İndi isə **"Mənsur şeirlər ustası"** adlı ədəbi-bədii gecənin ssenarisini nümunə üçün veririk. Səhnə gül dəstələri ilə bəzədilir. Gülhüseyn Hüseynoğlunun portreti səhnənin divarından asılır. Aparıcılar səhnəyə daxil olur. Mahir Qabiloğlunun " Gülhüseyn" adlı şeirini söyləyirlər.

**I Aparıcı:**

Həm mənzumdu, həm mənsurdu Gülhüseyn.
Həm mə'sumdu, həm məğrurdu Gülhüseyn.
Zindanların zülmətini əridən
Al şəfəqdi, qızıl nurdu Gülhüseyn.

Müəllimdir - alnıaçıq, üzüağ.
Ona yaddır başqa cürə yaşamaq.
Özü qıvraq, qayışbaldır, diribaş,
Şagirdinin saqqalı ağ, saçı ağ...

Mücrü onun mücrüsüdür - xəbərdar!
Mücrüsünə toxunmayın, lo salar.
Gülhüseynə tay tutmasın özünü
Mücrüsü boş, ürəyi boş olanlar.

İstiqanlı ilk fırtına quşudur,
Onu şahin nəğmələri yaşadır.
Öz canından keçməyinə keçdi o,
Ölmədisə -- bu allahın işidir...

Müşfiq dağı sinəsində əbədi,
Müşfiq şeiri - səcdəgahı, məbədi.
Əzabkeşin, cəfakeşin qisməti,
Ömür yolu, tale hökmü belədi.

Qəzəblənmə, qəzəbinə, hirsinə,
Gülhüseyn tək məşəqqətə gər sinə!
Ona dəyən dəysəydi qeyrisinə...
Başı-gözü çevrilərdi tərsinə.

Vətən! - deyib sinəsinə çırpmadı,
Hökm oxundu - gözünü də qırpmadı.
Sal qranit, gül yarpağı Gülhüseyn.
Mənsur şeirin bağça-bağı Gülhüseyn.

Nakam Müşfiq pasibanı Gülhüseyn,
Mənsur şeirin bağıbanı Gülhüseyn.

Masallıdan o, qucaqda ayrılıb,
Qönçə ikən gül budaqda ayrılıb.
Gülhüseyni Bakı çəkib ovxara
O, qınından bura çıxıb sıyrılıb.

Əsəbinin səbəbi də birdimi?
Dirigözlü oda düşüb gəncliyi.
Hörmət elə, səcdə etmə, Pirdimi?!
Ömrü uzun, ürəyi pak, gözü tox
İndi tapıb bir az qulaq dincliyi.

Kələyi yox, hiyləsi yox, toru yox.
Coşmağı var, daşmağı var, zoru yox.
Masallıda yırğalanıb beşiyi...
Azərbaycan torpağında yeri çox.

**I Aparıcı:** Cəmiyyətin yaranışı qədər qədim tarixə malik bədii ədəbiyyat illər keçdikcə nəinki müstəqil bir sənət, bir idrak sahəsi kimi inkişaf etmiş, həm də ilkin məhdudluq çərçivəsindən çıxaraq epik, lirik və dramatik növlərə ayrılmış, zamanın, ədəbi mühitlərin tələb və ehtiyaclarına uyğun müxtəlif yanrın özünəməxsus yeri və əhəmiyyəti, həmçinin kamil bədii yaradıcılıq sahəsi kim, inkişaf xətləri və meylləri vardır.

Böyük rus ədibi K.A.Fedin sənətkarlığı hər hansı bir əsərin ən əsas keyfiyyət göstəricisi sayır. O, yazır: “Sənətkarın ustalığı oxucuya, tamaşaçıya, dinləyiciyə həzz verməklə, onların gerçəkliyi bədii surətdə mənimsəmələrinə kömək edir, yaradıcılıq meyllərinin və estetik zövqlərini inkişaf etdirir. Xalq zamanla  ayaqlaşan, müasir dövrün canlı məsələlərinə hərarətlə cavab verən, xalqın düşüncə və arzularının ifadəçiləri olan sənətkarları xüsusilə yüksək qiymətləndirir.”

Bu sözlərdə görkəmli ədibimiz, mənsur şeirlər ustası Gelhüseyn Hüseynoğlunun da böyük  payı vardır. Çünkü, onun əsərlərinin hər birində oxucu, tamaşaçı və ya dinləyiciyə zövq verən, onları dərindən düşünməyə şövq edən və hərəkətə gətirən sənətkar ustalığının şahidi oluruq. Ədib elə mövzuları seçib qələmə alır ki, insanlara yalnız zövq verməsin, həm də onları düşündürsün, düz yola, xeyirxahlığa istiqamətləndirə bilsin. Sevindirici haldır ki, mövzular həm rəngarəng, həm bir-birindən maraqlıdır.

*Səhnəyə oxucular daxil olur. G.Hüseynoğlunun* ***"Çoxbilmiş"*** *hekayəsindən bir parçanı səhnələşdirib göstərirlər.*

Keçən dərsi danışmaq istəyənlər əl qaldırmışdılar. Tükəz müəllimin kimisə axtaran gözləri birdən Adilə sataşdı. Adil müəllimin nəzərindən yayınmaq üçün heç bilmirdi nə etsin...

Tükəz müəllimin amiranə səsi sinifdəki dərin süküutu pozdu:

**Müəllimə:** -Adil, sən gəl.

Adilin rəngi qaçdı, ayağa durub çəkinə-çəkinə dedi:

**Adil:** -Müəllim...müəllim...mən bilmirəm.

**Müəllimə:** -Niyə?

Adil cavab vermək əvəzinə qıpqırmızı qızarıb, başını aşağı saldı.

**Müəllimə:** -Hə, belə de, aydındır...Dünən cavab verdiyinə, "4" aldığına arxayın olmusan, elə bilmisən ki, bu gün səndən xəbər almaram. Tükəz müəllim sinfə göz gəzdirdi.

**Müəllimə:** Adil, atan harda işləyir?

**Adil:** Neftayıran zovadda.

**Müəllimə:** Nə iş görür?

**Adil:** Operatordur.

**Müəlimə:** Hər gün işə gedir?

**Adil:** Bəli, müəllim.

**Müəllimə:** Bax, görürsən, atan hər gün işə gedir ki, sən yaxşı yeyib-içəsən, yaxşı geyinəsən, asudə oxuyasan, vaxtlı-vaxtında da dərsə gələsən, həm də hər gün hazır gələsən. Axı dərs oxumaq da sənin işindir. Otur.

Adil pərt halda oturdu. Müəllim jurnala nə isə yazdı. Uşaqlar onun əlinin hərəkətindən "2" yazdığını dərhal başa düşdülər.

Ertəsi gün Tükəz müəllim Adilin oturuşundan, üz-gözündən, sakit baxışından hiss etdi ki, o, dərsə hazır gəlmişdir. Daha ondan soruşmadı. Axı sinifdə uşaq çoxdur. Hər gün eyni şagirddən dərs soruşmaq mümkün deyil.

Adil isə yerində oturub fikirləşirdi: "Gör nə çoxbilmişdir! Üzümə baxdı, bildi ki, öyrənmişəm, soruşmadı. İndi gərək hər gün hazır gələm...Əcəb işə düşdüm!.."

Belə işə düşmək pisdirmi?

**II aparıcı:** Gülhüseyn Hüseynoğlu həmişə axtaran, bədii kəşflər edən, narahatçılıqdan zövq alan sənətkar idi. O sözün əsl mənasında realist bir ədib idi. Romantika onun realizminin tərkib hissəsidir. Ədəbin yaradıcılıq prinsipi torpağa bağlılıq, həyatilik, səmimi və təbiilikdir. O, hansı janrda, hansı mövzuda

yazırsa-yazsın bu prinsipi həmişə gözləyir, gözlədiyi üçün də əsərləri inandırıcı olur, oxucuların qəlbinə yol tapır, yaddaşlara həkk olunur.

(G.Hüseynoğlunun qəzəlindən bir parça)

**Gəl, gülüm! Sevdiciyim, mən səni candan sevirəm,**
**Səni mən indi deyil, xeyli zamandan sevirəm.**
**Bundan yapdım de görək eşqə cinayətmi, gülüm,**
**Səni qəlbimdəki dolğun həyacandan sevirəm.**
**Varlığım doğranıb, ağlar səni gördükcə gözüm,**
**Çəkir artıq məni ah...dara bu hicran, sevirəm.**
**Aldı ağlımı başımdan sənin o işvələrin,**
**Şux camalını görəndə qaçar aman, sevirəm,**
**Bəsdir artıq mənə naz eylədin, nazlı pəri,**
**Səni könlüm təkin, ey sərvi-xuraman, sevirəm.**
**Sən ki, sevsən Gülünü, bəxtiyar olar, bunu bil!**
**Bəxtiyar olmağı mən, ey gülü xəndan, sevirəm.**

**Ədəbiyyat siyahısı:**


1. **Sabir Nuri Turkel. “Mənsur şeirlər ustası”. B.: “Şəms” nəşriyyatı, 2010.-196 s.**
2. **Hüseynoğlu G. Seçilmiş əsərləri. B.: Azərnəşr, 1993.-437 s.**
3. **Hüseynoğlu G. Seçilmiş əsərləri. B.: Gənclik, 1974.- 331 s.**
4. **Hüseynoğlu G. Çətin yol. B.: Gənclik, 1987.-181 s.**
5. **Hüseynoğlu G. İnsanlar və dalğalar. B.: Yazıçı, 1982.-313 s.**
6. **Hüseynoğlu G. Qatar gedir. B.: Gənclik, 1983.-268 s.**
7. **Hüseynoğlu G. Ömrümüz boyu.B.: Gənclik, 1978.-273 s.**
8. **Hüseynoğlu G. Yana-yana. B.: Yazıçı, 1986.-419 s.**



**Redaktor:** **Şəhla Qəmbərova-F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru**

**Tərtibçi:** **Könül Səmədzadə-F.Köçərli adına Respublika Uşaq Kitabxanası Elmi metodika şöbəsinin baş kitabxanaçısı**

**Korrektor:** **Ruhiyyə Məmmədli-F.Köçərli adına Respublika Uşaq Kitabxanasının elmi-metodika şöbəsinin müdiri**